TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri

_______________ E.M.Ağayev

"___"__________ 2015-ci il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

**İstifadə etməzdən əvvəl bu vərəqə-əlavəni diqqətlə oxuyun!**
Bu vərəqə-əlavəni saxlayın, ola bilsin ki, Siz onu yenidən oxumalı olasınız.
Əgər Sizdə əlavə suallar yaranarsa, zəhmət olmazsa, həkiminizlə məsləhətləşin.

**İSLA-MOOS** pastillər
ISLA-MOOS

**Tərkibi**
*Təsiredici maddələr*: 1 pastilin tərkibində 80 mq (0,4-0,8:1) İslandiya mamırının sulu cövhəri vardır.
*Köməkçi maddələr:* akasiya (yapışqan), saxaroza, yüngül mineral yağ, ammonyak karameli E 150 c, təmizlənmiş su.

**Farmakoterapevtik qrupu**
Boğaz xəstəlikləri zamanı istifadə edilən preparatlar.

**İstifadəsinə göstərişlər**
Boğazın yoluxucu-iltihabi xəstəlikləri, laringit, faringit, o cümlədən allergik mənşəli xəstəliklər (quru, qıcıqlandırıcı öskürək, səsin xırıldaması); kəskin və xroniki bronxitlərdə və xroniki bronxitlərdə və bronxial astma zamanı kompleks terapiyanın tərkibində quru öskürəyin simptomatik terapiyası;
Səs tellərinə artırılmış yüklənmə (müğənnilərdə, müəllimlərdə, məruzəçilərdə).
Ağız boşluğu və udlağın selikli qişasının quruluğu və qıcıqlanması (isitmə dövründə, kondisionerlə təchiz edilən məkanlarda kifayət qədər nəmlənməyən havanın udulması, isitmə dövründə yaşayış otaqlarının quru atmosferində və ya kifayət qədər nəmlənməyən ofis məkanlarında selikli qişanın qıcıqlanması, burunla tənəffüsün məhdudlaşdığı zaman və ya idman yarışlarında)

**Əks-göstərişlər**
Preparatın hər hansı komponentinə qarşı yüksək həssaslıq.

**Digər dərman vasitələri ilə qarşılıqlı təsiri**
Digər dərman vasitələri ilə qarşılıqlı təsiri bu vaxta qədər aşkar edilməmişdir.

**Xüsusi xəbərdarlıqlar və ehtiyat tədbirləri**
İsla-Moos preparatının tərkibində olan bitki cövhərləri bəzən bu dərman vasitəsinin rəng və dad dəyişmələrinə səbəb ola bilər, ancaq bu, onun terapevtik xüsusiyyətlərinə təsir göstərmir.
İsla-Moos preparatını şəkərli diabetdən əziyyət çəkən xəstələr çox ehtiyatla qəbul etməlidirlər.
Digər dərman preparatları ilə analogiyaya əsasən İsla- Moos hamiləlik və laktasiya dövründə yalnız həkimlə ilkin məsləhətləşmədən sonra qəbul etmək olar.

**İstifadə qaydası və dozası**
Böyüklər və 12 yaşdan yuxarı uşaqlar hər saatda 1 pastil (gün ərzində 12 pastilə qədər), 4 yaşdan 12 yaşa qədər uşaqlar - hər 2 saatdan bir 1 pastil (gün ərzində 6 pastilə qədər) ağızda yavaş-yavaş ərimasinə imkan verərək qəbul etməlidirlər.
İsla-Moos orqanizm tərəfindən yaxşı qəbul edilən dərman vasitəsi olduğundan onu heç bir qorxu olmadan uzun müddət ərzində istifadə etmək olar.
Bundan başqa, hətta xəstəliyin simptomları aradan qalxdıqdan sonra belə davamlı terapevtik effektə nail olmaq məqsədi ilə İsla-Moos preparatını hələ bir neçə gün qəbul etmək lazımdır.
Əgər 4-5 gün ərzində xəstəliyin dayanıqlı simptomları azalmırsa və ya, əksinə, pisləşirsə, bu zaman təngnəfəsliyin, qızdırmanın, həmçinin irinli və qanlı bəlğəmin meydana gəldiyi zaman dərhal həkimlə məsləhətləşmək lazımdır.

**Əlavə təsirləri**
Nadir hallarda allergik reaksiyalar meydana çıxa bilər.

**Buraxılış forması**
10 pastil, blisterlərdə. 3 blister içlik vərəqə ilə birlikdə karton qutuya qablaşdırılır.

**Saxlanma şəraiti**
$25^0$ C-dən yuxarı olmayan temperaturda quru və uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.

**Yararlılıq müddəti**
4 il.
Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

**Aptekdən buraxılma şərti**
Reseptsiz buraxılır.

**İstehsalçı**
Engelxard Artsnaymittel GmbX & Co. KQ, Almaniya,
61138, Niderdorfelden, Hertsberqştrasse, 3